Balayar SADİQ

# ƏDƏBİ VİCDANIN GÜLÜMSƏYƏN ÇAĞLARI

***("Ulduz" jurnalının iyun sayı haqqında qeydlər)***



"Ulduz" jurnalının iyun sayının eksperti olmaq təklifini baş redaktor, hörmətli şair dostum Qulu Ağsəsdən alanda əvvəl bir az duruxdum. Çünki jurnalın ötən saylarının birində də "ekspert" kimi çıxış etmişdim və təəssüf ki, "bədii mətn"ə münasibətimə görə xeyli "ədəbi düşmən" qazanmışdım. Cəmiyyətdə olduğu kimi, sənətdə də həqiqəti deməklə hamını razı salmaq mümkün deyil. Lakin müdriklər deyib ki, həqiqət harada olur-olsun, onu axtar, tap. Bədii həqiqətin axtarış yolları müxtəlif olsa da, nəticəyə varmaq yolu birdir və bu yolu "istedad" etiketi şərtləndirir.

Öncə bu ili "Nəsimi ili" elan etdiyinə görə cənab Prezidentə təşəkkür edirəm!

Milli-mənəvi dəyərlərimizə, ədəbiyyatımıza, bütövlükdə mədəniyyətimizə, onu inkişaf etdirənlərə və qoruyanlara böyük qayğı göstərdiyinə görə sağ olsun!

Ekspert kimi vəzifəmin icrasına başlamazdan əvvəl çox götür-qoy elədim. Əlimə qələm almazdan öncə xeyli özümü danladım və nəsihət etdim. Dedim ki, qələmdaşlarının qəlbinə dəymə; guya "yaxşı əsər" dediyinə qonorar çox veriləcək, yoxsa təbliğatı genişlənəcək? Yaxud "zəif əsər" dediyini çap etməyəcəklər?! Beləcə, bu ekspert yazısını "ədəbi vicdanım"la vuruşa-vuruşa yazmağa başlayıram.

Söz bir qapıdır. Bu qapıdan keçmək üçün qapını döymək lazım deyil. Döyülməklə açılmır bu qapı, duyumla, duyğuyla açılır. Duyğusu, duyumu olmayanın bu qapıda işi yoxdur. Dünya yaranandan bəri Sözlər qapıların, Qapılar sözlərin alın yazısıdır. İnsan ömrü də Söz kimi bir qapıdır. Zaman-zaman, fəsil-fəsil açılır; gah sevincin, gah da kədərin üzünə…

Bu duyğu və düşüncələr içində "Ulduz"un altıncı sayının qapısını açıram. Qapın həmişə xeyrə açılsın, "Ulduz"!

Jurnalın bu sayında tanınmış şair dostum Qəşəm Nəcəfzadənin ekspertizası onun yaradıcı üslubuna xas olan maraqlı improvizələrlə, tarixə qısa ekskursiya xarakterli lirik detallarla, həmçinin bədii mətnlərə münasibətin rəngarəngliyi ilə kreativlik nümayiş etdirir.

And olsun Seyid Əli Seyid Məhəmməd oğlunun – İmadəddin Nəsiminin ruhuna ki, jurnalda çıxış edən gözəl şair Adilə Nəzərin "özüylə söhbəti" səmimi təsir bağışlayır. Bu cümləni yazanda ədəbi vicdanım gülümsəyir, lakin müəllifin "yazısı"nı oxuyanda "ədəbi vicdanım" ona verdiyim "nəsihətləri" unutmaq istəyir, məni pərişan edir. Deyir, yox, mən deməsəm, ulu Nəsiminin ruhu inciyər. Allah, sən kömək ol, həqiqəti desəm, məqalə müəllifi, deməsəm, Nəsiminin əqidəsi əndişələnər. Nəsiminin misrasını dinləyirəm:

"Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar".

"Nəsimi yaradıcılığında dil və üslub təfəkkür hadisəsi kimi" məqaləsində müəllifin vətəndaşlıq mövqeyi konyukturaya uğradığı üçün yazıda elmi-nəzəri, irfani və sənətkarlıq faktorlarının səthiliyi manipulyativ xarakter daşıyır. Məqalədə elmi fikirlərin təsdiqi üçün yalnız bir mənbənin adı çəkilir, halbuki Nəsimişünaslığın çağdaş ədəbiyyatımızda ciddi tədqiqatçıları var. "Haşiyə" hissəsi isə həcmcə məqaləyə bərabərdir. Necə deyərlər, qulaq buynuzu keçib.

Məncə, islam fəlsəfəsinin incəliklərinə varmadan, hürufizmin, hürufi təliminin mahiyyətinə vaqif olmadan Nəsiminin bədii-fəlsəfi düşüncəsini, məfkurəsini kontekstdən çıxarıb da onun haqqında yazmaq naşı yanaşmadı. Nəsimi demişkən:

Səqahüm rəbbihüm xəmri ləbindən,
Bəyanü ayəti-Quran deyilmi?

Rüxü zülfün bəyaz ilə səvadı
Biri küfrü, biri iman deyilmi?..

Nəsimi kəşfi-əsrarini bildi,
Anı fəhm etməyən nadan deyilmi?

Gənc şair Tural Turanın maraqlı şeirləri onun istedadına güzgü tutur. İnanıram ki, o bu güzgünün tozunu tez-tez siləcək.

"Qısa fikirlər xəzinəsi" rubrikası jurnalın məzmununu dolğunlaşdırır.

Taleh Mansurun "Narciso Rodriguez" hekayəsinin ilk cümləsindən onun hələ də şair təxəyyülü ilə nasirlik etdiyini duydum. Gənc yazarın özünüaxtarış cəhdləri uğurludur.

Bununla belə, Taleh Mansurun "Narciso Rodriguez"ində Markesin "Dünyanın ən gözəl ölüsü" hekayəsinin xəfif təsiri duyulur və bu, heç də gənc yazar üçün qüsur deyil. Onun bədii dilində müəyyən düzənsizlik olsa da, ümumən yazıçı xarakter yarada bilir. Bu, yazıçılığın əsas və önəmli cəhətlərindəndir.

Vasif Əlihüseynin imzasına çoxdan bələdəm. Şeirləri poetik nəfəsin təravəti və səmimi ovqatı ilə maraqlıdır. Məzmun dolğunluğu, bədii ümumiləşdirmə bacarığı onun artıq püxtələşmiş şair imicini uğurla təqdim edir.

Fərid Hüseynin "Şər və Ab" yazısı üslub yeniliyi, düşüncə tərzi ilə seçilir. Müəllifin "poetik reportaj"ının informativ xüsusiyyəti diqqət çəkir. O, faktla işləməyi bacaran istedadlı qələm adamıdır. Klassik üslubda çağdaş improvizə elementləri müəllifin "səyahətnamə"sinin bədii sanbalını artırır.

Firəngiz Sabirqızı çağdaş qadın şairləri arasında uğurlu şeirləri ilə yadda qalır. Ənənəvi üslubda yenilik meyilləri onun poetik axtarışlarının səciyyəvi cəhətlərindəndir.

Bahəddin Salmanın "Qozbelin son duası" hekayəsi gənc yazarın uğurlu gələcəyinə böyük ümid yaradır. Müəllifin yazıçı manerası, cümlələrindəki bədii nəfəsin genişliyi, məxsusi müşahidə qabiliyyəti onun ədəbi nailiyyətidir.

Afaq Şıxlı maraqla izlədiyim şairlərdəndir. Məxsusi poetik ovqat, kövrək ruh, obrazlı düşüncənin bədii siqləti onun şeirlərinə xüsusi təravət qatır. Jurnaldakı şeirləri də "Şeir vaxtı"na səmimi poeziya nəfəsi gətirib.

Emil Rasimoğlu müasir poeziyamızın bənzərsiz sənətkarlarından biri olan Əlisəmid Kür haqqında qələmə aldığı essesində zəngin bir dünyagörüş sərgiləyib. Sənətkarın portret cizgilərini irfani məqamla çağdaş həyatın harmoniyasında canlandıra bilib. Kiçik bir yazıda gənc yazarın Sözə, Sənətkara, Yurda, Həyata baxışı şairin yubiley gününün eyforiyasından daha qabarıqdır. Əlisəmid Kür dünyaya gəlməmiş də dünya onun ruhunda mövcud olub. Yazının ən uğurlu detalı onun həyatiliyidir. İstedadın yolu həyatdan daha çox həyatilikdən keçir.


BU SAYIMIZDA

3 Qəşəm NƏCƏFZADƏ "Ulduz"lu səhərlərə salam...
6 Adilə NƏZƏR özüylə söhbəti və yazısı
12 Tural TURAN Azadlığın ən gözəli
13 qısa fikirlər xəzinəsi
18 Taleh MANSUR Narciso Rodriguez
23 Vasif Əlihüseyn İndi hamımız təkik...
25 Fərid HÜSEYN Şər və Ab
31 Firəngiz SABİRQIZI İki qolun arasında...
32 Bahəddin SALMAN Qozbelin son duası
40 Afaq ŞIXLI Zaman! Tələsmə, dayan!
43 Emil RASİMOGLU Ağrılar sevdalısı
44 Vasili ŞUKŞİN İmtahan
48 Gülay TAHİRLİ debüt
50 Nizami TAĞISOY tənqid
55 Pərviz AXUND nəsr
59 "SÖZ" yaradıcılıq birliyi
65 Firuz MUSTAFA tribuna
69 Zəka VİLAYƏTOĞLU Pəncərə
72 sorağı gəlməyənlər
75 dərgidə kitab

ULDUZ

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs

**Redaksiya heyəti**
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)

**Bədii redaktor**
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 21.06.2019
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib.
«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC-də çap olunub.
Sifariş. №46, Tiraj: 300
Qiyməti: 2 man.
**1967-ci ildən çıxır**
**Şəhadətnamə № 238**
**Nömrənin eksperti:**
Balayar Sadiq

“Tərcümə saatı”nda tanınmış rus nasiri Vasili Şukşinin “İmtahan” hekayəsi Zeynəb Əliqızının tərcüməsində maraqlıdır. Tərcümə, dilimizin məxsusi koloritində rus bədii təfəkkürünün və psixologiyasının ekvivalentini tapa bilib.

“Debüt”də gənc şair Gülay Tahirlinin şeirləri ilə görüşdüm. İmza təzə, sözlər, fikirlər maraqlı, poetik təfəkkür “avrostil”də.

Bu şeirlərdə qadın danışır, lakin qadın ruhunun zərifliyi dekonstruksiya olunmuş haldadır. Gənc şairin axtarış meyillərini alqışlayıram. Arzulayıram ki, sevgi şeirlərinə öz duyğularını qatsın, onun özünüifadə mətnində tanış notlar duyulmasın. Əlbəttə, Gülay öz poetik dünyasına qovuşacaq…

“Tənqid” bölməsində tanınmış ədəbiyyatşünas alim Nizami Tağısoyun məqaləsi öz elmi sanbalı ilə seçilir. Hiss olunur ki, alimin çağdaşlıq duyumu kifayət qədərdir. Dünya ədəbi həyatına bələdlik, həmçinin bu bilgini öz “ədəbi mətbəximiz”lə uzlaşdırmaq meyilləri də diqqətdən yayınmır.

Pərviz Axundun “Qüssəlinin dəftər-qələmi” adlı hekayəsi tipik azərbaycanlı yazarın ənənəvilikdən doğan yazıçı olmaq istəyinə cəhddir. Bu qənaətdəyəm ki, gənc nasir çox mütaliə etməlidir.

“Söz” yaradıcılıq birliyi təqdim edir” bölməsində gənc qələm adamlarının yazıları könül oxşayır. Çox sevindim. Bax, həqiqi ədəbi gənclik budur; təcrübəsiz, kəm-kəsirli, lakin saf, duru, ən əsası, istedadlı.

Cəmil Cəmilbəylidən bir misra:

“ayaqlarımı əlil arabasında oturub
meyvə-tərəvəz satan xalanın
yanında qoydum…”

həyati müşahidədən doğan işıq dolu kədərin bədii müstəvidə inikası səmimidir.

Əliqulu Bədirlidən bir misra:

“Gülüşün damladır, göz yaşın dəniz” – səmimi sevgi qoxuyur bu obrazlı düşüncə…

Nərminə Zeynalovadan bir misra:

“Darıxmaq ətri gəlir,
Siz tərəfdən biz tərəfə”

poeziyanın kövrəkliyi, təravəti meh kimi oxşayır adamı…

Adilə Hacılının “Mari” hekayəsindən:

“ – Mari, Mari, bəsdir bu güzgüylə danışdın”.

Və Adil Bəkirlidən bir misra:

“Sənsizlik qürbətində
Vətənsizəm…
Və sənsizəm!”

Bu gənclərin bədii mətnlərindən istedad ətri gəlir. Belə istedadlı gənclərə jurnalın qapılarını geniş açdığı üçün görkəmli şair Qulu Ağsəsə və jurnalın yaradıcı kollektivinə təşəkkür edirəm.

“Tribuna” rubrikasında tanınmış dramaturq, yazıçı, filosof Firuz Mustafanın yazısı ustad qələminin qüdrətini dərhal hiss etdirir. Balkar xalqının taleyi fonunda Salih Qurtuyevin ədəbi bioqrafiyasına güzgü tutan müəllif, balkar xalq şairinin yubileyinə ünvanladığı bu məqaləni yubilyarın maraqlı misraları ilə tamamlayır:

“Bu gün narahatdır dünyamız bizim,
Yolların üstünü alıb toz-duman.
Geriyə baxıram, gecəm-gündüzüm
Geyilmiş paltara bənzəyir yaman”.

İstedadlı nasir Zəka Vilayətoğlunun imzası da çağdaş ədəbi mühitdə seçilməkdədir. O, artıq öz yazıçı səciyyəsini məxsusi detallarla zənginləşdirir. Şair – misradan göründüyü kimi, nasir də cümlədən boylanır. Elə ilk cümlədən yazıçının müşahidə bacarığının bədii mətndə necə “pəncərə” açdığını “Pəncərə” hekayəsində görürük:

“O pəncərə ilin bütün fəsillərində açıq qaldı”.

Bu hekayə Zəka Vilayətoğlunun yaradıcılıq uğurlarına daha bir naxış əlavə edir.

“Sorağı gəlməyənlər” rubrikasında qocaman şair Ağasəfa ilə “şeirimizin Anna Axmatovası” adlandırdığım istedadlı şair, “Ulduz”un əməkdaşı Fərqanə Mehdiyevanın müsahibəsi səmimi, kövrək və yaddaqalan ovqat aşılayır.

“Dərgidə kitab” rubrikasında daha bir istedadlı gəncin uğuruna şahidlik edirəm. Furqan imzasının təqdim etdiyi yığcam, lirik-psixoloji detallarla zəngin kiçik hekayələr onun gələcək yazıçı taleyinin qaranquşlarıdır. Ədəbi “falçılıq”dan uzaq olsam da, deyim ki, Furqan ciddi mütaliəsini, yazıçılıq texnikasını inkişaf etdirsə, nəsrimiz çox şey qazana bilər. Uğur olsun!

Qəribədir ki, mən yazımın əvvəlində “Ədəbi vicdan” ifadəsini işlədəndə jurnaldakı sonuncu müəllifin son cümləsinin belə bitməsindən xəbərsiz idim. O cümlə belədir:

“Qaçay əminin məni bağışlaması vicdan əzabımı daha da artırmışdı, deyəsən…”

“Ulduz”un 6-cı sayına yazdığım ekspert yazısını tamamlayanda “ədəbi vicdanım”ın istedadlı gəncliyin yazılarından aldığı rahatlıq hissinə sevindim. Onlar milli ruhumuzun, ədəbiyyatımızın gələcəyidir! Bir də var, gələcəyin ədəbiyyatı, bax “Ulduz” jurnalı onu yaradır.